# Antik dövrdə atın metalda təsviri: arxeoloji perspektivdən baxış

**Nərmin Məmmədli**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
nermin.mmmdl07@gmail.com

**Açar sözlər:** At kultu, asma bəzək, zoomorf fiqurlar, metalişləmə sənəti, antik dövr

**Giriş.** Atlar əsrlər boyu bəşəriyyətin mədəni, iqtisadi, siyasi və hərbi həyatında mühüm yer tutmuşdur. Qədim dünyada çeviklik, müstəqillik və mənəvi güc kimi xüsusiyyətləri simvolizə edirdi. Atların rəmzi mənası həm gündəlik həyat, həm də dini-mifoloji baxımdan geniş bir anlam daşıyır. Bu səbəbdən bəşəriyyət boyu atlar maddi-mənəvi cəhətdən böyük əhəmiyyət kəsb edir və onların təsviri bir çox arxeoloji tapıntılarda əks olunur. Bu təsvirlər atların simvolik mənalarını daha da gücləndirir və onların tarix boyu cəmiyyətlərin düşüncə və inanclarında hansı mövqeyə sahib olduğunu ortaya qoyur.

Məqalədə Mollaisaqlı və Nərgizava abidələrindən əldə olunmuş at fiqurlu metal əşyaların estetik, rəmzi mənaları araşdırılır və onların arxeoloji əhəmiyyəti təhlil edilir. Mollaisaqlı abidəsi İsmayıllı rayonunun Mollaisaqlı kəndində yerləşir. Abidədə keçən əsrin 60-70-ci illərində F.Osmanov tərəfindən arxeoloji qazıntı işləri aparılmışdır, lakin məqalədə tədqiq edəcəyimiz at fiqurlu metal əşyalar təsadüfi tapıntılardan əldə olunanlardır (1, s.125). Nərgizava abidəsi isə Ağsu rayonunun Gəgəli və Bico kəndlərinin arasında yerləşir. Abidə 1997-ci ildə qeydə alınmış və sonrakı illərdə arxeoloji qazıntılara cəlb olunmuşdur (2, s.3). Mollaisaqlı abidəsi e.ə. IV-I əsrlərə, Nərgizava abidəsi isə e.ə.III-I əsrlərə aid edilir (3, s.8).

**Stilistik analiz.** Hər iki abidədən də tapılmış at fiqurları asma bəzək əşyası funksiyasını daşıyırlar. Tədqiq edilən bədii metal nümunələri ümumilikdə 7 ədəd olmaqla, 1 ədəd iki başlı at fiqurundan, 1 ədəd qaçış pozisiyonunda olan fiqurdan və 5 ədəd at üzərində təsvir edilmiş atlı fiqurlarından ibarətdir (4). Bu nümunələrin bəzilərində fiqurların həm bel nahiyyələrində, həm qarın nahiyyələrində ilgəyə rast gəlinir. Bu hala Azərbaycanın bir sıra

arxeoloji abidələrindən tapılmış metal asmalar arasında da təsadüf edilir. İlgəyin, fiqurların hər iki tərəfində verilməsi fiqurların bir zəncirə ardıcıl olaraq keçirilb istifadə edildiyini göstərir. Tapıntıların yüksək bədii və dekorativ xüsusiyyətləri ilə daha yaxından tanış olmaq məqsədilə onların ayrı-ayrılıqda təsvirini təqdim etməyi məqsədəuyğun hesab edirik.

**İki başlı at fiquru**. Əks tərəflərə baxan iki at başının mil üzərində bərkidilməsi ilə hazırlanmışdır. Atların yalı nəbati (sünbülvari) naxışlarla bəzədilmişdir. Ağızlarına keçirilmiş yüyənin bu fiqurda öz əksini tapması atlar haqda bəzi fikirlər yürütməyə imkan verir. Yüyən, atların əhilləşdirilmiş olmasını, mil üzərinə bərkidilmiş iki at başı isə qoşqu atı olması fikrini irəli sürməyə imkan verir. Milin aşağı hissəsinə üç halqa bərkidilmişdir. At başları isə bir-birinə ilgək vasitəsi ilə birləşir. İlgəyin saplağı zolaqlı ornamentlə bəzədilmişdir (şək.1. 6).

**Qaçış pozisiyonunda təsvir edilən at fiquru.** Fiqur sadə və stilizə edilmiş dizayna malikdir. At fiqurunun ayaqlarının içəriyə doğru əyilmiş vəziyyətdədir ki, bu da onun qaçış vəziyyətində olduğunu göstərir. Quyruğu belinə doğru qatlanaraq halqa əmələ gətirmişdir. Başı biraz aşağı əyilmiş şəkildə olan at fiqurunun yalının bədii işləmələri hörülmüş yal təsviri bağışlayır. Atın boyun, sinə hissəsində qabarıq xətlərlə onun əsləhələri verilmişdir. Belində asmaq üçün ilgək bərkidilmişdir (şək.1. 5).

*Atlı fiqurları.* Atlı fiqurlara gəldikdə isə, onlardan ikisi Mollaisaqlıdan, üçü isə Nərgizavadan tapılmışdır. Mollaisaqlıdan əldə olunan fiqurlar birbaşa olaraq dövrün hərbi xüsusiyyətlərini əks etdirən döyüş atları təsvirində verilmişdir. Fiqurlarda qaçış vəziyyətində olan atlarının sinəsində sinəbənd, ağız hissələrindən boynuna uzanan yüyən və belinə bərkidilmiş yəhər, yəhərdə dik vəziyyətdə oturmuş atlı təsvir olunub. Atlının bir əli atın yalında, digəri isə yuxarı qaldırılmışdır. Atların yalı hörükvari naxışlarla bəzədlib. Atlar qaçış vəziyyətində olsalar da, başı dik və önə baxar vəziyyətdədir. Atlının başı halqa şəklində düzəldilməklə həm də ilgək rolunu oynayır. Atlının başının halqa formasında verilməsi halı digər atlı fiqurlarında da təkrarlanır. Atların qulağı dik, quyruğu isə aşağıya doğru ayaqlarının arasına keçmiş vəziyyətdədir (şək.1. 1-2).

Nərgizavadan əldə olunan iki ədəd atlı fiqurları da bir-birilə bənzərlik təşkil edirlər. Atlı fiqurlarında atın başının arxaya istiqamətlənməsi və ayaqlarının duruş vəziyyəti atın şahə qalxdığını söyləməyə əsas verir. Atların quyruqları da yuxarıya doğru qalxmış və ucları düyünlənmiş təsvirini yaradır. Hər iki atın çənə hissələrdən aşağıya doğru kəndirlə bərkidilmiş zınqırov sal-

lanır. Zınqırov atın sinəsinə bitişik vəziyyətdə verilmişdir. Atların yalı sünbülvari naxışlarla işlənmişdir. Fiqurların boyun hissələrində verilmiş burulğanı xatırladan naxışlar bir-birilə səkkiz rəqəminə oxşar şəkildə əlaqələndirilmişdir. Atın üzərində işlənmiş atlı fiqurları cilovdan iki əllə yapışaraq dik vəziyyətdə verilmişdir. Atlı fiqurlarının belində iki paralel zolaq şəklində verilmiş kəmər aydın təsvir edilmişdir (şək.1. 4,7).

Nərgizavadan tapılan bir başqa atlı fiqur görünüşcə digərlərindən nisbətən fərqlənir. Belə ki, atın başı əyri dimdiyi xatırladan formada hazırlanılıb. Ön ayaqlarından birinin ucu halqa şəklindədir. Atın boynunda ucu yuxarıya doğru kiçik düz çıxıntı var. Boğaz boyu yal və yüyəni əvəz edəcək naxış işlənmişdir. Quyruğu isə arxa ayaqlarının arasına doğru içəri vəziy-yətdə verilmişdir. Atlının gövdəsi halqa zolaqlarla örtülmüş, başı halqa şəklində olmaqla, əlləri cilovdan tutmuş vəziyyətdə verilib. Arxa ayaqları da içəri doğru əyilmiş şəkildədir (şək.1, 3).

Mollaisaqlıdan tapılan atlı fiqurları bir-birinə çox bənzəyir. Nərgizava asma atlı fiqurları da öz aralarında oxşarlıq təşkil etməklə, Mollaisaqlının atlı fiqurlarından fərqlənirlər. Bu fərqlər əsasən atların gövdə və baş quruluşunda müşahidə edilir. Mollaisaqlı fiqurlarında gövdə daha ensiz və uzunsov, Nərgizava fiqurlarında isə nisbətən enli və qısa formadadır. Bundan başqa Nərgizavadan olan asma atlı fiqurlarının ikisinin boyun hissəsində spiralvari naxışlar təkrarlanır ki, bunları Mollaisaqlı atlı fiqurlarında görmək olmur.

**Simvolik anlamları.** Naxışlar və müəyyən fiqur biçimində hazırlanılmış əşyalar bədii xüsusiyyətləri ilə yanaşı müəyyən simvolik mənaları da ifadə edir. Ola bilsin ki, naxışların meydana gəlməsi bundan qaynaqlanır. Yəni, motiv və naxışlar insanların həyat tərzlərini, təbiətə və ətraf mühitə olan münasibətlərini dolayısı yollarla anlatmaq zəruriliyi nəticəsində ortaya çıxmış ola bilər. İnsanlar təbiətdə mövcud olan və həyatları üçün zəruri olan bəzi qüvvələri və inancları simvollaşdırırdılar. Simvolların daşıdığı mənaya gəldikdə isə onlar bir deyil, bir neçə anlam ifadə etmiş ola bilərlər. Bir simvol zamanla fərqli anlamlar da daşıya bilər. Həmçinin fərqli cəmiyyətlərdə fərqli mahiyyətlər ifadə etməsi ilə yanaşı, bəzən eyni cəmiyyətlərdə belə fərqli anlamlar verə bilər (5, s.3). Aydındır ki, bütün hallarda naxışlar dini, sosial, mədəni, mifoloji və fəlsəfi cəhətləri ilə öz dövrünün həyat tərzini əks etdirən mühüm mənbədir. Bu baxımdan motiv və ornamentlərin semantikasının öyrənilməsi tədqiqat üçün vacib hallardan hesab olunur.

Müxtəlif məqsədlər üçün istifadə edilən at, iqtisadi və siyasi hadisələrin inkişafında köməkçi rol oynayırdı. At, xüsusən də köçəri cəmiyyətlərin həya-

tında mühüm əhəmiyyət kəsb edərək, "atçılıq mədəniyyətinin" formalaşmasına səbəb oldu. Köçəri tayfaların iqtisadi və siyasi yüksəlişində, onların bir yerdən başqa yerə köç etmələrində vacib bir funksiyaya malik olmaqla, onların başqa cəmiyyətlərlə sosial-mədəni alış-veriş içərisində olmasına da geniş imkanlar yaratmışdır (6, s.113-114). Eyni zamanda at köçəri tayfaların həyatında sadəcə minik heyvanı kimi deyil, döyüş vasitəsi, qida, içki və geyim mənbəyi idi. İnsanlar yaşayış üçün təməl ehtiyaclarının çoxunu atdan faydalanaraq əldə edirdilər.

Cənubi Qafqaz ərazisində atçılığın keçirdiyi inkişaf tarixi qədim zamanlara dayanır. Cəlilabad rayonu ərazisində yerləşən Əliköməktəpə abidəsindən aşkar olunan at sümükləri Eneolit dövründə Azərbaycanda atın əhilləşdirildiyini sübut edir (7, s.16). Sinifli cəmiyyətlərin meydana gəlməsi nəticəsində ata olan tələbatın artması ilə atçılığın inkşafına göstərilən qayğı da yüksəlmişdir. Gündəlik həyatın bütün sahələrində böyük ehtiyac duyulan at hərb sənətinin inkşafına da öz töhfələrini vermişdir. Arxeoloji tapıntılar və antik dövr müəlliflərinin albanlar haqqında verdiyi məlumatlardan da aydın olur ki, at qədim albanların həyatında əvəzolunmaz faktorlardan biri olmuşdur. Strabon albanların Pompeyə qarşı mübarizədə piyada döyüşçülərlə yanaşı, 22 min atlı çıxardıqlarını qeyd edirdi (8). Mahmud Qaşqarlının "Divanü lüğat-it-türk" adlı əsərində qeyd edilən "At türkün qanadıdır" deyimindən də anlaşılır ki, tarix boyu at türklərin həyatının ayrılmaz bir hissəsi olmuşdur.

Köçərilərin ictimai-mədəni həyatında xüsusi yer tutan atdan müqəddəs bir heyvan kimi dini ayinlərdə qurban olaraq verilməsində və ya ölən birinin atının quyruğunun kəsilməsində, ya da bərabər dəfn edilməsində istifadə olunurdu (6, s.114-115). Bu fakt özünü oğuz dastanlarında da təsdiqləyir. Dastanlarda göstərilir ki, atın aqibəti sahibinin aqibətinə bağlıdır. Əgər qəhrəman ölmüşdürsə, onun atı da onunla bərabər dəfn olunur və ya at qurban edilərək quyruğu bir dirəkdən asılırdı. Sonuncu hal əsasən at sahibinin döyüş vaxtı itkin düşməsi zamanı icra olunurdu (9, s. 262). At dəfnləri ilə bağlı nümunələrə ölkəmizdə də rast gəlinir. Şərur rayonun Şahtaxtı kəndində nekropollardan birində bütöv at skeleti aşkara çıxarılmışdır (10, s.116). Şəki ərazisində Daşüz kurqanında N.Muxtarovun rəhbərliyi ilə aparılan tədqiqatlar zamanı at skeletinə rast gəlinmişdir. Atla dəfn etmənin izləri Gəncəçay hövzəsində, Muğan düzündə, Mingəçevir kurqanlarında da müşahidə edilir (7, s.51 ,75).

At, Azərbaycan incəsənətində, ələxüsus da antik dövrdə geniş yayılmış simvolik məna kəsb edən motivlərdəndir. Bunu petroqliflər, qədim sənətkarlıq nümunələri kimi bir sıra maddi mədəniyyət nümunələri təsdiqləyir. Ağsu

rayonun Nüydi kəndindən antik dövrə aid, tuncdan tökmə üsulu ilə hazırlanmış at təsvirli asma bəzək əşyası tapılmışdır (11, şək. 35). Bu, birbaşa tədqiqata cəlb olunmuş at fiqurları ilə yaxın analogiya təşkil edir. Antik dövrdə atın əhəmiyyətliliyini göstərən digər nümunələrdən biri də İsmayıllı rayonunundan tapılmış I-III əsrlərə məxsus qızıl üzükdür. Üzüyün qaşı üzərində iki atın real təsviri verilmişdir (12, şək. 112). At fiqurlarına gildən hazırlanmış bütlərdə də rast gəlirik. Belə bütlərdən biri Mollaisaqlı abidəsindən tapılmış, üzərində yəhəri ilə birgə təsvir edilmiş bütdür (13, tabl. 4). At, Azərbaycan xalçaçılarının da müraciət etdiyi motivlərdəndir. Bu təsvirlərə yerli xalçalarla yanaşı ən qədim xalça nümunəsi olan Pazırık xalçasında da təsadüf edilir (14, şək. 81). Türk mifologiyasında atın ən təmiz və ən ulu varlıq olması ilə təbiətin dörd əsas ünsürü olan hava, od, su, torpağın yaranmasında atın rolunun olmasına inanılır. Qədim türklərin dini təfəkkürlərində igidlərin atlarının göydən gəlməsi ilə əlaqədar inanclar da var (15, s.60). Qədim dini inanclardan olan şamanizmdə də at, ayin zamanı şamanın göy üzünə çıxacağı, o biri dünyaya sayahət edəcəyi minik heyvanı və qurbanlıq heyvan kimi önəmli yerdə durur (16, s.80).

**Nəticə.** Araşdırma göstərir ki, at qədim cəmiyyətlərdə sadəcə nəqliyyat və döyüş vasitəsi kimi deyil, həm də simvolik və mədəni dəyərə sahib varlıq kimi qəbul olunurdu. Arxeoloji qazıntılarda tapılan at fiqurlu metal əşyalar, atın bu cəmiyyətlərdəki xüsusi rolunu təsdiq edir və onun həmin dövrlərin həyatında nə qədər əhəmiyyətli yer tutduğunu göstərir. Qədim dünyada at fiqurlarının metal əşyalarda ifadə edilməsinin səbəbi yalnız estetik deyil, həm də dini, sosial və mədəni əhəmiyyət daşıyırdı. Bu fiqurlar insanların dünyaya baxışını, mənəvi inanclarını və cəmiyyətdəki mövqelərini ifadə edirdi. Nəticə olaraq, at fiqurlu metal əşyaların stilistik analizi və simvolik mənaları onların arxeoloji əhəmiyyətini daha da artırır və bu əşyalar antik dünyaya işıq salan mühüm bir pəncərə kimi dəyərləndirilir.

## Ədəbiyyat

1. Osmanov F.L. İsmayıllı rayonunun arxeoloji abidələri haqqında // Azərbaycanın Maddi Mədəniyyəti. VI cild, 1965, s. 123-130
2. Xəlilli F.S. Qədim Nərgizava və Gəgəli. Bakı: Adiloğlu, 2003, 40 s.
3. Quluzadə N., Ağayev G. Şirvanın bədii metalı: Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunun Nərgizava və Mollaisaqlı materialları. Elmi redaktor Nailə Vəlixanlı. Bakı: Milli Azərbaycan Tarixi Muzeyi, 2012. 102 s.

4. AMEA MATM Arxeologiya fondunun materialları: AF 1856, 24361, 2233, 24958, 2248, 24360, 24883.
5. Alp K.Ö. Orta Asyadan Anadoluya kültürel sembollere giriş // Eflatun yayınevi, 2009, 80 s.
6. Belek K. Eski türklerde at ve at kültürü (dünden bugüne kırgız kültürel hayatı örneği) // Gazi Türkiyat, Bahar 2015-2016, s. 111-128.
7. Quliyev F.T. Qədim Azərbaycanda atçılıq (Eneolit, Tunc və İlk Dəmir dövrü materialları əsasında): tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı, 2003,161 s
8. Страбон. География: в 17 книгах. Пер. Стратановского Г.А. Ленинград: Наука, 1964, 944 с.
9. Esin E. Orta Asyadan Osmanlıya türk sanatında ikonoqrafik motifler // Kabalcı Yayınevi, 2003, 460 s.
10. Əsədov A. Tunc dövrünün dəfn adətləri // AMEA-nın Naxçıvan bölməsi xəbərləri. İctimai və humanitar elmlər seriyası. 2011, cild 7, № 3, s. 115-120.
11. Osmanov F.L. Ağsu ərazisində arxeoloji tədqiqatlar. Bakı, Adiloğlu, 2006, 164 s.
12. Azərbaycanın arxeoloji qızıl və gümüş əşyaları. Kataloq. AMEA Azərbaycan Tarixi Muzeyi. / N. Vəlixanlıın redaktəsi ilə. Bakı, Ziya, 2013, 100 s.
13. Osmanov F.L. Mollaisaqlıda antik dövrə aid yeni arxoloji tapıntılar // AMM, IX cild, Bakı, Elm, 1980, s. 82-87.
14. Артамонов М.И. Сокровища саков. Москва: Искусство, 1973. 280 с.
15. Gültəkin İ. Türkdilli xalqların mifologiyasında totemlər // "Risalə" Elmi araşdırmalar jurnalı. № 1, 2019 (16), s. 56-65.
16. Hasanov Z. Argimpasa – Scythian goddess, patroness of shamans: a comparison of historical, archaeological, linguistic and ethnographic data. / E.E. Djaltchinova-Malec (ed.) Art and Shamanhood. Bibliotheca Shamanistica, vol. XV. Budapest: Akademiai Kiado, 2014, pp. 73-93.

## Summary

## The depiction of the horse on metal in Classical Antiquity: a review from an archaeological perspective

**Narmin Mammadli**

The article examines the role of the horse in ancient societies, its reflection in archaeological findings, and the stylistic analysis and symbolic meanings of horse-shaped metal objects. The research was carried out on the basis of seven hanging ornaments belonging to the classical antiquity period, obtained from Nargizava and Mollaisagli archaeological sites. In addition to reflecting the social, religious and cultural importance of the horse in the ancient world, these metal findings also act as a valuable source of information for understanding the level of art and technology of the time. Horse figures symbolically expressed people's worldview and beliefs and reflected their position in the society.

**Keywords:** horse cult, pendants, zoomorphic figures, metal artwork, Classical Antiquity


## Резюме

## Изображение коня в металле: взгляд с археологической перспективы

**Нармин Мамедли**

В статье рассматривается роль лошади в древних обществах, ее отражение в археологических находках, а также стилистический анализ и символические значения металлических предметов в форме коня. Исследование проведено на основе семи образцов античных подвесных украшений, происходящих из памятников Наргизава и Моллаисаглы. Эти металлические изделия не только отражают социальную, религиозную и культурную значимость коня в древнем мире, но и служат ценным источником информации для понимания уровня искусства и технологий того времени. Фигуры коней символически выражали мировоззрение и убеждения людей, отражали их положение в обществе.

**Ключевые слова:** культ коня, кулон, зооморфные фигурки, художественное произведение из металла, античность




**Şəkil 1.** At fiqurlu asmalar. 1-2 – Mollaisaqlı; 3-7 – Nərgizava(1 – AF2233; 2 – AF2248; 3 – AF24958; 4 – AF24360; 5 – AF24361; 6 – AF1856; 7 – AF24883).